№ 247 (5569) ■ Qiyməti: 60 qəpik

BAKI XƏBƏR

06-12 MART 2026-cı il

www.baki-xeber.com

**"Bakı-xəbər" qəzeti ilə Respublika Xatirə Kitabı Redaksiyasının birgə layihəsi əsasında yazılmış "Dünya hələ nağıl idi" kitabının birinci hissəsini təqdim edirik.**

# "Can bala, sənin bəxtin niyə belə gətirdi?"

## (Sənədli povest)



***(Əvvəli ötən sayımızda)***

- Məgər sən ananla deyildin? Niyə qayıtdın? Bu qadın kimdir? - sual dalınca sual yağdırdılar. Qadın onları çox da intizarda saxlamadı və bütün olub-keçənləri yerli-yataqlı danışdı.

Minayə nənə: - Axı bu necə anadır? - deyib Əmrahı bağrına basdı. "Can bala, sənin bəxtin niyə belə gətirdi?" - deyə-deyə başına sığal çəkdi.

Baxıcı qadın rahatlıqla nəfəs aldı: - Nə gizlədim, uşağın doğmalarını tapa bilməyəcəm deyə çox qorxmuşdum. Şükür ki, uşaq çox ağıllı imiş. Bu yaşda olan uşaqların əksəriyyəti yaşadığı rayonun, kəndin adını bilmir. Elə bura çatanacan onun doğru söylədiyinə mən də inanmırdım. Amma kəndə girən kimi yolu özü tanıdı və birbaşa evinizə gətirdi, - dedi.

Qadın uşağı təhvil verib evinə qayıtdı. Əmrahın Hamaya nənəsi artıq yox idi və o, yaşlı Minayə nənəsi ilə gənc xalası Günelin boynunda qaldı. Çətin də olsa, onlar bu işin öhdəsindən gəlir, uşağı sevə-sevə böyüdürdülər. Lakin tezliklə Günelin ailə qurub Gəncəyə köçməsi Minayə nənənin işlərini çətinləşdirdi. Onun yaşı və səhhəti balaca uşağa baxmağa imkan vermirdi. Üstəlik Mehralı baba da qızı Hamayanın vəfatından bir neçə il sonra dünyasını dəyişdi. Bu, Minayə nənənin yükünü bir az artırdı.

Əmrahın artıq məktəb yaşı çatmışdı. Lakin doğum haqqında şəhadətnaməsi olmadığı üçün onu məktəbə apara bilmirdilər.

Nəhayət, aidiyyəti təşkilatların köməyi ilə uşağın sənədlərini qaydaya salıb 2008-ci ildə onu Goranboy rayon Zeyvə kənd Seymur Məmmədov adına orta məktəbin I sinfinə qoydular. Əmrah 2009-cu ildə I sinfi başa vurdu. Lakin bu bir il onun üçün çox ağır keçdi. Çünki artıq xalası Gəncədə, dayısı Naftalanda yaşayırdı. Sinəsi övlad dağlı Minayə qarının isə beli bükülmüş, dizləri taqətdən düşmüşdü. Qadın hərdən ətrafında baş verənləri unudur, huşu gedirdi. Belə vəziyyətdə uşağa nəzarət etmək mümkün deyildi. Xala Günel tez-tez onlara baş çəkir, pal-paltarlarını yuyub təmizləyir, ev-eşiyi səliqəyə salır, yeməkiçməklərini hazırlayırdı. Amma məsələ yalnız bununla həll oluna bilməzdi. Nəhayət Günel Əmrahı Gəncəyə, öz yanına aparmağa qərar verdi və belə də etdi. Əmrah II sinfə Gəncə şəhər 34 saylı tam orta məktəbdə davam etdi. Amma hər zaman olduğu kimi bu dəfə də Əmrahın xoşbəxt bir ailənin üzvü olaraq uşaqlıq illərini qayğısız yaşamaq şansı olmadı. Cəmi dörd ildən sonra Günelin ailə həyatı uğursuzluğa uğradı və o, bir oğul övladı ilə tənha qaldı. Bir yandan yaşadığı evin kirayəsini ödəmək, digər yandan iki uşağın gündəlik tələbatını, yemək-içməyini təmin etmək lazım gəlirdi. Bunun üçün isə işləməli, çalışıb çörəkpulu qazanmalı idi.

Ehtiyacın sıyrılmış qılıncını başı üzərində hiss edən Günel çıxış yolunu azyaşlı övladını müvəqqəti olaraq Gəncə Uşaq evinə verməkdə gördü. Əmrah isə oğluna nisbətən bir qədər böyük idi və onun xüsusi baxıma ehtiyacı olmayacağını düşündü. Lakin bir ildən sonra heç də belə olmadığını gördü və 12 yaşlı Əmrahı oğlunun yanına - Gəncə Uşaq evinə apardı.

Əmrahın anası Gövhərcandan isə hələ də bir xəbər yox idi. O, 5 yaşlı oğlunu bir neçə günlüyə evində kirayənişin qaldığı qadına tapşırıb gedəndən sonra bir daha geri qayıtmamış, o gedən getmişdi.

Ən pisi də odur ki, Gövhərcan Əmrahın şəhidliyindən nə az, nə çox, düz 2 il sonra xəbər tutdu.

Hələliksə, Əmrah gələcəyindən xəbərsiz ev-ev, məkan-məkan dolaşmaqda idi. Bu dəfə taleyi onu Gəncə Uşaq evinə tərəf yönəltmişdi.

**Böyük ailənin kiçik Əmrahı**

Nazilə xanımın Uşaq evinin müdiri vəzifəsinə gəlişi 2011-ci ilə təsadüf edirdi. O, bu müəssisəni təhvil alanda çox bərbad vəziyyətdə idi. Hazırkı müasir standartlara uyğun bu gözəl şəraiti yaradana qədər çox işlər görülmüş və illərin zəhməti sərf olunmuşdu. Amma burada mənəvi çətinlik daha çoxdur. Doğrudan da, yüzlərlə qəlbisınıq uşağın könlünü alıb həyatdan küskün dünyalarına bir rəng qatmaq üçün gecə-gündüz çalışmaq insandan nə qədər fiziki və mənəvi güc tələb edir.

"İlklərin hər zaman çətinlikləri olur. Bu müəssisəyə rəhbər təyin olunanda da burada müəyyən çətinliklərlə qarşılaşacağım şübhəsiz idi. Bu qədərini olmasa da, çətin olacağını az-çox bilirdim. Ən azı ona görə ki, buradakı uşaqların əksəriyyəti ata-ana qayğısından uzaq, ailə sevgisindən məhrum, isti yuva münasibətlərindən kənar olan uşaqlardır və təəssüflər olsun ki, bəzən bu hal onların xarakterinə barışmazlıq, aqressivlik, acımasızlıq, qəddarlıq və s. kimi xoşagəlməz xüsu-siyyətlər yansıdır. Bu kimi arzuolunmaz halların inkişafına mane olmaq, mənfi xüsusiyyətlərin formalaşmasının qarşısını almaq və alternativ mövqeyə sahib olmalarını təmin etmək insandan ilahi bir səbir istəyir. Şükürlər olsun ki, müəssisəmizdə çalışan hər bir kəs bunu gözəl anlayır və böyük səbirlə öz sevgisini, mərhəmətini, qayğıkeşliyini, isti ünsiyyətini onlara peşəkarcasına bəxş edirlər. Mən peşəkarlıq sözündən burada ona görə istifadə etdim ki, təlim-tərbiyə işində bəzən ciddiyyət, tələbkarlıq və s. xüsusiyyətlər də öz vacibliyini büruzə verir. Sadəcə bütün insani keyfiyyətlərdən yerində və məqamında, ən ümdəsi isə qədərində istifadə etmək lazımdır," - söyləyir Nazilə xanım.

Təlim-tərbiyə və digər xüsusiyyətlərlə yanaşı, burada uşaqların vətənpərvər bir ruhda böyümələrinə də xüsusi önəm verilir. Bəlkə elə bunun nəticəsidir ki, Böyük Zəfərlə sonuclanan 44 günlük Vətən müharibəsində Uşaq evinin məzunlarından da iştirak edənlər az olmadı. Onlardan biri olan Əmrah Rajapov torpaqlarımızın bütövlüyü uğrunda qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucaldı. Əmrahın bütün şəhər rəsmilərinin və ictimaiyyətin iştirak etdiyi təntənəli dəfn mərasimində Nazilə xanım həyatında ilk dəfə məhz onun məzarı başında əsl ana kimi dil deyib ağlamışdı.

"Əslində buradakı hər bir uşaq mənim üçün doğmadır və övladım qədər əzizdir. Amma Əmrah həm də qəhrəman Vətən oğludur. Onunla ancaq fəxr etmək, qürurlanmaq olar. Yoxluğu nə qədər ürəyimizə dağ çəksə də, acısı nə qədər qəlbimizi dağlasa da", - deyən Nazilə xanım xəyalən Əmrahın ilk dəfə Uşaq evinə gətirildiyi günə qayıdır. Onu buraya 2012-ci ilin may ayının 18-də Günel xalası gətirmişdi: "Əmrahı körpəliyindən biz, daha doğrusu anam saxlayıb. Uşağın ata-anası yoxdur. Biz rayonda - Goranboy rayonunun Zeyvə kəndində yaşamışıq. İndi anam dünyasını dəyişib. Qardaşımın öz ailəsi, öz uşaqları, öz sorumluqları var və onlar Naftalanda yaşayırlar. Mən isə Gəncədə kirayənişin qalıram. Tənha qadınam. İşləməli, çörəkpulu qazanmalıyam. Əmraha nəzarət etməyə, təhsili ilə məşğul olmağa vaxtın və imkanım yoxdur. Odur ki, çıxış yolunu oğlum Vüsal kimi, onu da Uşaq evinə təhvil verməkdə gördüm", - demişdi xalası.

Uşaq evinə gətiriləndə Əmrah 12 yaşına yenicə keçmişdi. O, keşməkeşli, acılarla dolu olan ömrünün bəlkə də ən gözəl illərini bu böyük ailədə - Gəncə Uşaq evində yaşadı.

İlk günlər Əmrah üçün çox çətin idi. Tanımadığı in-sanlar, bələd olmadığı məkan, müxtəlif xarakterli uşaqlar... Onu binanın ikinci mərtəbəsindəki böyük qrup oğlanlar üçün nəzərdə tutulmuş iri bir otaqda yerləşdirmişdilər. Burada 15-ə qədər uşaq var idi. Durna qatarı kimi nizamla düzülmüş çarpayıların arasında olan yatağı ilə şəxsi əşyalarını yığdığı tumbası pəncərənin önündə və otağın demək olar ki, tən ortasında qoyulmuşdu. Geniş və hər tərəfli şəraitə malik olan otaq səliqəli olduğu qədər də rahat və işıqlı idi... Amma bu işıq hələ ki, balaca Əmrahın ürəyini isidə bilməmişdi. O, doğulub böyüdüyü kəndlərini, ailəsini, dostlarını unuda bilmir, kasıbyana olsa da doğma evlərinin, bağlı-bağçalı həyətlərinin xiffətini çəkir, darıxırdı. Yeni yaşayış yeri, yeni mühit onu sıxır, körpəcə qəlbi bu yeni şəraitə uyğunlaşmaqda çətinlik çəkirdi.

Azad təbiətli, qoruq-qadağadan uzaq, dəcəl bir kənd uşağının böyük bir şəhərdə, nizamlı davranışlarla, ölçülü qayda-qanunlarla yaşamaq məcburiyyətində olması onu çox sıxırdı. İçindəki sızıltını, ağrı-acını sakitləşdirməyin, varlığını hiss etdirməyin çarəsini tapa bilmir, uşaq ağlı ilə bunun yolunun ətrafındakı insanları incitməkdə, aqressiyada, bəzən də özünə qapanıb bir küncə çəkilməkdə görürdü. Belə vaxtlarda fikrində üzünü görmədiyi, kimliyini belə bilmədiyi atasını yamanlayır, hələ körpəliyindən onu nənəsinin qucağına atıb həyatından çıxan anasını qınayırdı. Kənd həyatı, sonra Günel bacısının ailəsi ilə kirayədə qaldığı illər, indi isə Uşaq evi. Günlər isə hiss olunmadan ötüb keçir, gündüzlər doğan günəş axşamlar qürub eyləyir, gecələr ay doğur, ulduzlar sayrışırdı. Dəyişən heç nə yox idi. Dəyişən təkcə Əmrahın yaşam tərzi, tale yolları idi.

***(Ardı var)***

***Fərruxə Umarova***